

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 125 (23.036)

*7 iyul 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*İcmal*

## Naxçıvan sürətli iqtisadi, sosial və mədəni inkişafı ilə ölkəmizin yüksəlişinə öz töhfəsini verir

*İyun ayının ümumi mənzərəsi qazanılan uğurların davamlı xarakter aldığını göstərir*



***Naxçıvan qədimliyi, mədəni zənginliyi, mühüm strateji əhəmiyyəti ilə yanaşı, həm də böyük önəmə malik beynəlxalq tədbirlərin keçirildiyi inkişaf, sabitlik, mədəniyyətlərarası dialoq məkanı, informasiya mərkəzi kimi də şöhrət qazanıb. Doğma diyarımızda islami dəyərlərin dünyəviliklə vəhdətdə inkişaf etdirilməsi nəticəsində İslama münasibətin elmi və mədəni yanaşmaya əsaslanan Naxçıvan modeli formalaşıb. Ölkəmizdəki tolerantlıq və multikulturalizm mühitində bu modelin özünəməxsus yeri vardır. Məhz, bu mənada, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olması tolerantlığın, multikulturalizmin harmoniyasından yaranan və İslama yüksək münasibəti özündə əks etdirən Naxçıvan modelinin dünyaya təqdim edilməsinə geniş imkanlar açdı.***

Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iyunun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən növbəti iclasında bu istiqamətdə görülən işlər qeyd edilib, "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirinə hazırlıq işləri müzakirə olunub, qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Əvvəlcə görülən işləri əks etdirən sərgiyə baxış olub. Sonra Təşkilat Komitəsinin iclasında çıxış edən Ali Məclisin Sədri mötəbər tədbirə hazırlıqla bağlı tapşırıqlar verib.

İyunun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri cənab Vasif Talıbov İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri və "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində iştirak etmək üçün muxtar respublikaya gələn xarici ölkələrin nümayəndələri ilə görüşüb.

Ali Məclisin Sədri qonaqları Azərbaycanın müqəddəs torpağı Naxçıvan şəhərində salamlayıb, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsində təşəbbüsü olanlara təşəkkür edib. Qeyd olunub ki, 2009-cu ildən ötən dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və dəstəyi ilə Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı seçilməsi ilə bağlı işlər uğurla həyata keçirilib.

Əbdüləziz Osman əl-Tuveycri Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə bağlı İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı tərəfindən hazırlanmış rəmzi loqonu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova təqdim edib.

Həqiqətən də, Naxçıvanın İslam Mədəniyyətinin Paytaxtı statusunu daşıması ölkəmiz və muxtar respublikamız üçün tarixi hadisə olmaqla yanaşı, həm də qədim diyarın bəşər sivilizasiyasına növbəti töhfəsi hesab edilir. Belə ki, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı tərəfindən həyata keçirilən bu layihə üzv dövlətlərin də birlikdə koordinasiyası çərçivəsində icra edilir və ən önəmli mədəni layihələri, sivilizasiya və bəşəri dəyərlərin İslama bağlılığını nümayiş etdirir. Bu paytaxtların seçilməsi üçün konkret olaraq xüsusi meyarlar vardır. Bu ada layiq məkanda elmi və mədəni infrastruktur – elmi mərkəzlər, mədəni-kütləvi tədbirləri təşkil edən təsisatlar, mükəmməl təhsil qurumları fəaliyyət göstərməli, şəhər qədimliklə müasirliyi özündə əks etdirməli, həmin diyar, xüsusilə zəngin tarixə sahib olmalı, mədəni baxımından və eyni zamanda İslam mədəniyyətinə, bəşəri və insani dəyərlərə töhfə verməlidir. Çünki bu layihənin məqsədi xalqlar arasında yaxınlaşmanı təmin etmək, tarixi yaddaşı dini həmrəyliklə insanlara qaytarmağa çalışmaq, keçmişlə müasir dövrün müsbət sintezini yaratmaqdır. Qədim sivilizasiyanın beşiyi olan Naxçıvan məhz bunun üçün İslam dünyasının ən ideal məkanıdır.

Digər tərəfdən, Naxçıvan İslam dünyasının ən müqəddəs torpaqlarından biri kimi, tarixən Yaxın və Orta Şərqin ictimai-siyasi, iqtisadi və mədəni həyatında, ideoloji baxışların formalaşmasında xüsusi rol oynayıb. Beşminillik şəhər mədəniyyətinə malik olan Naxçıvan tarixən təktanrıçılığın mərkəzlərindən biri olub. İslamaqədərki dövrdə burada yaşayan Azərbaycan türkləri dini etiqad, adət-ənənə və mənəvi dəyərlər baxımından İslam dininə yaxın idilər. Ona görə də yerli əhali bu dini 653-cü ildə könüllü qəbul edib, İslam mədəniyyəti güclü dövlətçilik, sülh və əmin-amanlığın olduğu qədim Naxçıvanda daha böyük inkişaf yolu keçib, böyük yaradıcı gücə malik olub. Bu diyar orta əsrlərdə İslam mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilib. XV əsrdə tərtib edilmiş "Dünyanın İslam tarixi xəritəsi"ndə Naxçıvanın adı qeyd edilib və yazılıb: "Naxçıvan İslamın ən güclü dayaqlarından biridir... Naxçıvan yaşayış məntəqəsi Allaha yaxınlığı ilə Azərbaycan üçün möcüzədir". İyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində bu məqamlar xüsusilə qeyd olunub.

Əvvəlcə tədbir iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoyub, ulu öndərin xatirəsinə ehtiramlarını bildirib, Heydər Əliyev Muzeyinə gələrək dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlara baxıblar. Tədbir başlanmazdan əvvəl teatrın foyesində fotoqraf Hüseyn Bağırovun "Mənim Naxçıvanım" fotosərgisinə baxış olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Haçadağın fotoşəklini İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycriyə, Batabatın fotoşəklini isə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının Baş katibi Düsen Kaseinova hədiyyə edib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri cənab Vasif Talıbov Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Paytaxtı Naxçıvan şəhərində əlamətdar tarixi günlərin yaşandığını bildirərək iştirakçıları salamlayıb. Ali Məclisin Sədri iştiraklarına görə qonaqlara təşəkkürünü bildirib, "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" tədbirlərini açıq elan edib.

Həmin gün "Araz" Dövlət Qəbul Evində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində iştirak üçün Naxçıvana gəlmiş qonaqların şərəfinə rəsmi ziyafət verilib.

İyunun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktoru Əbdüləziz Osman əl-Tuveycri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev və "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində iştirak etmək üçün muxtar respublikaya gəlmiş xarici ölkələrin nümayəndələri "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Naxçıvan Biznes Mərkəzində, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində və Duzdağ Fizioterapiya Mərkəzində olublar.

Muxtar respublikada iqtisadi inkişafın başlıca şərtlərindən və sosialyönümlü tədbirlərdən biri də müasir yol infrastrukturunun yaradılmasıdır. Naxçıvan şəhərdaxili avtomobil yollarının yenidən qurulması da bu sahədə görülən işlərin davamıdır.

İyunun 2-də Ali Məclisin Sədri Naxçıvan şəhərdaxili avtomobil yollarının yenidən qurulması layihəsi çərçivəsində tikinti işlərinə başlanılması, mühəndis-texniki tələblərə əməl olunması və keyfiyyətə diqqət yetirilməsi barədə tapşırıqlar verib.

Bu gün muxtar respublikamızda aqrar sahədə iqtisadiyyatın innovasiyayönümlü inkişafını təmin edən strategiya uğurla həyata keçirilir. Son illər kənd təsərrüfatının inkişafını nəzərdə tutan dövlət proqramlarının uğurlu icrası, bu sahəyə dövlət büdcəsindən subsidiyaların ayrılması Naxçıvanda əkinçiliyə marağın artmasına səbəb olub. Əkinçiliyin inkişafında başlıca şərtlərdən biri isə elmi-təcrübi fəaliyyətin təkmilləşdirilməsi, maarifləndirmə işlərinə ciddi diqqət yetirilməsi, məhsuldar toxum sortlarından və mütərəqqi metodlardan istifadənin təşviqidir. Muxtar respublikamızda bu amil diqqətdə saxlanılır. "Kəhrəba" Fermer Təsərrüfatının yaradılması bu sahədə görülən işlərin davamıdır.

İyunun 12-də Ali Məclisin Sədri "Kəhrəba" Fermer Təsərrüfatının əkin sahələrinə baxıb, fermer təsərrüfatının təcrübə və maarifləndirmə istiqamətində fəaliyyətinin gücləndirilməsi, növbəli əkin qaydalarına əməl olunması, təsərrüfatda, əsasən, bostan-tərəvəz və dənli-paxlalı bitkilərin əkininə üstünlük verilməsi, bu zaman mütərəqqi suvarma və əkin metodlarından istifadə olunması, muxtar respublikada ixtisaslaşdırılmış yerli toxum sortlarına olan tələbatın ödənilməsi barədə müvafiq tapşırıqlar verib.

Böyük mütəfəkkirlərin, sərkərdələrin, dahilərin vətəni olan Naxçıvanın yetişdirdiyi şəxsiyyətlərin fövqündə dayanan əvəzolunmaz liderimiz, ulu öndər Heydər Əliyev bütün həyatı boyunca Vətəninə, xalqına bağlılıq nümunəsi göstərib, ölkəmizin, o cümlədən doğulub boya-başa çatdığı Naxçıvanın inkişafı, yüksəlişi, təhlükəsizliyinin təmini üçün əlindən gələni əsirgəməyib. 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan görkəmli dövlət xadimi Azərbaycanı üzləşdiyi bəlalardan xilas edib, müstəqilliyimizi qoruyub saxlayıb, sabitlik və sürətli sosial-iqtisadi inkişafın əsasını qoyub. Bu gün müstəqil Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir.

İyunun 14-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 15 İyun – Milli Qurtuluş Günü münasibətilə Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının təltiflərinin, Məmməd Səid Ordubadinin "Qılınc və qələm" tarixi romanı əsəri əsasında hazırlanmış tamaşanın təqdimatı olub.

Ali Məclisin Sədri tədbirdə iştirak edib.

Hərbi kadrların yetişdirilməsində mühüm rol oynayan, ən müasir sosial-məişət şəraitə və tədris bazasına malik olan Heydər Əliyev adına Hərbi Lisey bu gün qazandığı uğurlarla diqqəti cəlb edir. 1998-ci ildə 56 kursantla fəaliyyətə başlayan hərbi liseydə bu gün 572 kursant təhsil alır. Builki məzunlar da nəzərə alınmaqla ötən 20 ildə hərbi liseyi 3 minə yaxın kursant bitirib.

İyunun 23-də Heydər Əliyev adına Hərbi Liseyin 20 illik yubileyi və 2018-ci il buraxılışı münasibətilə tədbir keçirilib.

Ali Məclisin Sədri tədbirdə iştirak edib, Heydər Əliyev adına Hərbi Liseyin 20 illiyi və 18-ci buraxılışı münasibətilə liseyin kursant, zabit və müəllimlərini, valideynləri və tədbir iştirakçılarını təbrik edib.

Sonra Ali Məclisin Sədri liseyin əlaçı kursantlarına attestatları təqdim edib, zabit, müəllim və kursantları mükafatlandırıb.

Liseyin müəllimləri ilə görüşən Ali Məclisin Sədri sonra ümummilli liderimiz Heydər Əliyevin hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirib. Ali Məclisin Sədri liseyin yeməkxanasında olub, kursantların qidalanması ilə maraqlanıb.

İyunun 23-də Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib. Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Ali Məclisin Sədri şəxsi heyəti salamlayıb, Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyi münasibəti ilə əsgər və zabitləri, onların timsalında muxtar respublikadakı ordu, birləşmə və hissələrin bütün şəxsi heyətini təbrik edib,

*Ardı 2-ci səhifədə*

Əlahiddə Ümumqoşun Ordunun daşınan kompleks rabitə stansiyasına və hava hücumundan müdafiə bölmələrinin idarəetmə məntəqəsinə də baxıb.

Həmin gün Naxçıvan şəhərində açıq səma altında Naxçıvan Döyüş Şöhrəti Muzeyi də istifadəyə verilib. Ali Məclisin Sədri muzeydə yaradılan şəraitlə tanış olub.

Muxtar respublikanın yaşayış məntəqələrində yeni içməli su və kanalizasiya sistemlərinin qurulması, əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təminatı diqqətdə saxlanılır. Bu sahədə görülən işlərin davamı olaraq Babək rayonunun Şəkərabad kəndində də içməli su və kanalizasiya şəbəkəsi qurulub.

İyunun 29-da Şəkərabad kəndində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilib. Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak edib, şəbəkənin istifadəyə verilməsini bildirən qurğunu işə salıb.

Ali Məclisin Sədri sakinlərlə söhbətində deyib ki, bu il Şəkərabadda kənddaxili avtomobil yolu da yenidən qurulacaq, asfalt örtük salınacaqdır. Sakinlər də aparılan abadlıq, quruculuq işlərində yaxından iştirak etməli, tikililəri, qurulanları qorumalı, yaşıllıqların artırılmasına və torpaqların əkilməsinə diqqət yetirməlidirlər.

Muxtar respublikada taxılçılığın inkişafı sahəsində kompleks tədbirlər görülür. Taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinə dövlət maliyyə dəstəyinin göstərilməsi, keyfiyyətli toxum sortları və texnikalarla təminatı bol məhsul istehsalına, biçin kampaniyasının vaxtında və itkisiz başa çatdırılmasına imkan verir. Cari ilin məhsulu üçün muxtar respublikada 32 min 483 hektar sahədə taxıl əkilib. Hazırda sahələrdə biçin aparılır.

İyunun 30-da Ali Məclisin Sədri Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl əkini sahəsinə gəlib, taxıl biçininin gedişi ilə maraqlanıb.

Ali Məclisin Sədri muxtar respublikamızda taxılın vaxtında və itkisiz toplanılmasının vacibliyini vurğulayıb, müvafiq tapşırıq və tövsiyələr verib, taxıl biçini ilə tanışlıqdan sonra mexanizator və kombaynçılarla görüşüb.

Sonra Ali Məclisin Sədri Kəngərli rayonunun Böyükdüz kəndi ərazisindəki 500 hektar torpaq sahəsinə baxıb, ərazidə layihələndirmə işlərinin aparılması və qapalı suvarma şəbəkəsinin qurulması barədə tapşırıqlar verib.

*Ölkəmizin, o cümlədən muxtar respublikamızın tarixinə mühüm əhəmiyyətə malik əlamətdar hadisələrin yazıldığı iyun ayı dövlətimizin qüdrətini, həm də onun dünyada qazandığı nüfuzu bir daha göstərdi. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi parad və bu bayram ayı ərəfəsində Naxçıvanda qazanılan Günnüt zəfəri ölkəmizin hərbi gücünü, qüdrətini göstərirdisə, muxtar respublikamızda keçirilən "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində dünyanın bir sıra dövlətlərinin, beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələrinin, çoxsaylı diplomatların, elm, ictimaiyyət və mədəniyyət xadimlərinin iştirakı respublikamızın beynəlxalq nüfuzunu təsdiq edirdi. Qədim diyarımızda ötən ayın ümumi mənzərəsinə nəzər yetirsək, bir daha əmin oluruq ki, sürətli sosial-iqtisadi və yüksək mədəni inkişaf, milli ideologiyaya, milli dövlətçiliyə, mənəvi dəyərlərə sıx bağlılıq, güclü ordu quruculuğu və müxtəlif istiqamətlər üzrə bütün növ təhlükəsizliyin təmin olunması istiqamətində görülən işlər muxtar respublikamızı bundan sonra da yeni-yeni uğurlara aparacaqdır. Naxçıvan özünün inkişafı, yüksək dəyərləri, sədaqət nümunəsi ilə Vətənimiz Azərbaycanın yüksəlişinin daim ön sıralarında yer alacaqdır.*

**✍ Rauf KƏNGƏRLİ**

---

*9 iyul Azərbaycan diplomatlarının peşə bayramıdır*

## Diplomatiya dövlətçiliklə bağlıdır və bundan kənarda inkişaf yoxdur

***Diplomatiya tarix boyunca hər bir dövlət üçün xüsusi əhəmiyyətli fəaliyyət sahələrindən biri olmuşdur. Qədim tarixi və zəngin dövlətçilik ənənələri olan Azərbaycanın da diplomatiya tarixi olduqca parlaq keçmişə malikdir. Albaniya, Atabəylər, Şirvanşahlar, Qaraqoyunlu və Səfəvi dövlətlərinin, Azərbaycan xanlıqlarının diplomatik fəaliyyətləri Azərbaycanın diplomatiya tarixinin şanlı səhifələrindəndir. XX əsr isə bütövlükdə Azərbaycan diplomatiyasının tarixində xüsusi mərhələ təşkil etmişdir. Müsəlman Şərqində ilk demokratik respublika Azərbaycanda qurulmuş və böyük diplomatik uğurlara imza atmış, 1919-cu il iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyi yaradılmışdır.***

Ölkə başçısı cənab İlham Əliyevin 2007-ci il 24 avqust tarixli Sərəncamına əsasən hər il bu tarix – iyulun 9-u Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunur.

XX əsrin sonlarında ikinci dəfə müstəqillik əldə etmiş Azərbaycan Respublikası əsrin əvvəllərində olduğu kimi yenidən Ermənistanın işğalçı siyasəti ilə üzləşmişdir. Bununla yanaşı, ölkə daxilindəki siyasi hərcmərclik Azərbaycanı dərin xaosa sürükləmişdi. Nəticədə, ölkə ərazisinin 20 faizi işğal edilmiş, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra bu prosesin qarşısı alınmış, bütün sahələrdə olduğu kimi, xarici siyasətdə də ciddi dönüş yaradılmışdır. Ulu öndərin təşəbbüsü və rəhbərliyi altında elmi və milli əsaslara, dərindən düşünülmüş konsepsiyaya söykənən xarici siyasət prinsipləri bərqərar olunmuş, Azərbaycanın çoxistiqamətli və tarazlaşdırılmış xarici siyasət strategiyası formalaşdırılmış, zəngin qanunvericilik bazası yaradılmışdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Azərbaycanın müstəqilliyini təmin edən atributlardan biri xarici siyasətidir. Azərbaycanın sağlam xarici siyasəti olmalıdır, düşünülmüş xarici siyasəti olmalıdır, uzaqgörən xarici siyasəti olmalıdır, elə xarici siyasəti olmalıdır ki, Azərbaycanı dünya dövlətləri birliyinə bağlasın, Azərbaycanın bütün dövlətlərlə əlaqəsini, Azərbaycanın mənafeyini təmin etsin və Azərbaycanı dünya miqyasında müstəqil dövlət kimi tanıtmağı təmin edə bilsin..."***

Ulu öndər proqram xarakterli bu fikirlərini gərgin əməyi sayəsində reallığa çevirmişdir. Həmin dövrdən Ermənistanın təcavüzünün qarşısının alınması, respublikanın ərazi bütövlüyünün bərpası və münaqişənin həlli ilə bağlı beynəlxalq aləmin dəstəyinin qazanılması Azərbaycan diplomatiyasının ən mühüm vəzifəsinə çevrilmişdir. Nəticədə, atəşkəsə nail olunmuş, Azərbaycanın haqq mövqeyi beynəlxalq tribunalardan dünya ictimaiyyətinin diqqətinə çatdırılmış və Ermənistanı işğalçılıq siyasətinə son qoymağa çağıran beynəlxalq sənədlər qəbul olunmuşdur. Eyni zamanda dünyanın müxtəlif dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı əlaqələr qurulmuş, bir sıra beynəlxalq əhəmiyyətli layihələrin reallaşdırılması ilə Azərbaycan Respublikası Cənubi Qafqazın ən güclü dövlətinə çevrilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu xarici siyasət kursu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan ikitərəfli və çoxtərəfli formatda BMT-nin Təhlükəsizlik Şurası və digər strukturları, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, İqtisadi Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Demokratiya və İnkişaf Naminə Təşkilat, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Körfəz Əməkdaşlıq Şurası, Afrika İttifaqı, Ərəb Dövlətləri Liqası və digər beynəlxalq və regional təşkilatlarla fəal əməkdaşlığını davam etdirir. Bir sıra hallarda məhz Azərbaycanın irəli sürdüyü təkliflər və təşəbbüslər bu təşkilatlar çərçivəsində əməkdaşlığın yeni istiqamətlərinin müəyyən edilməsində və səmərəliliyin artırılmasında mühüm rol oynayır. Bu gün Azərbaycanın Cənubi Qafqazın aparıcı dövlətinə və beynəlxalq enerji-kommunikasiya layihələrinin mərkəzinə çevrilməsi, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması məhz cənab İlham Əliyevin uğurlu diplomatiyasının nəticələridir. Ölkə Prezidenti bu barədə demişdir: ***"Azərbaycan xarici siyasət sahəsində böyük uğurlar əldə edib. Biz beynəlxalq arenada öz milli maraqlarımızı bundan sonra da müdafiə edəcəyik. Biz bu gün dünyada çox böyük hörmətə malik olan ölkə kimi tanınırıq. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır".***

Azərbaycanın xarici siyasətinin prioriteti olan Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində işlər davam etdirilir. Ermənistanın işğalçılıq siyasətinin ifşası, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri və ərazi bütövlüyü çərçivəsində həll olunması xarici dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən əməkdaşlıq zamanı gündəlikdə duran əsas məsələdir. Artıq Kolumbiya, Çexiya, Rumıniya, Serbiya, Peru, Panama, Pakistan, Meksika, İordaniya, Bosniya və Herseqovina, Honduras, Sudan və Cibuti parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının bir sıra ştatları Xocalı soyqırımını tanımışdır. Azərbaycan öz torpaqlarını istər sülh, istərsə də hərbi yolla azad etmək hüququnu açıq şəkildə bəyan etmişdir.

Bu gün Naxçıvan Muxtar Respublikası da sürətlə inkişaf edir və xarici əlaqələrini genişləndirir. Ötən dövrdə blokadanın yaratdığı əsas



problemlər müvəffəqiyyətlə həll edilmiş, nəqliyyat və kommunikasiya sahəsindəki çətinliklər aradan qaldırılmış, İran və Türkiyə ilə əlaqələr qurulmuşdur. Həmçinin muxtar respublika rəhbəri tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində digər dövlətlər və beynəlxalq təşkilatlarla da qarşılıqlı faydalı əməkdaşlıq üçün zəmin yaranmışdır. 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşünün, 2012-ci ildə Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin, eləcə də türkdilli ölkələrin gömrük xidməti rəhbərlərinin, 2014-cü ildə Azərbaycan, Türkiyə və Gürcüstan müdafiə nazirlərinin üçtərəfli görüşlərinin Naxçıvanda keçirilməsi, Türkdilli Ölkələrin Parlament Assambleyası baş katibinin Naxçıvana səfər etməsi, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi muxtar respublikanın xarici siyasət kontekstində əhəmiyyətinin mühüm göstəricisidir.

Muxtar respublika sürətlə inkişaf edir və xarici əlaqələri genişlənir. Ötən dövrdə muxtar respublikanın bir sıra dövlətlər və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri yaranmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Türkiyəyə, İran İslam Respublikasına, Gürcüstanın Acarıstan Muxtar Respublikasına və Avstriyanın Ştayermark Federal Əyalətinə rəsmi və işgüzar səfərləri əlaqələrin inkişafına mühüm töhfələr vermişdir. Bu gün Naxçıvan Muxtar Respublikası özünün muxtar dövlət statusuna əsasən Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində uğurla təmsil olunur. 2012-ci ildə Fransanın Strasburq şəhərində Yerli və Regional Hakimiyyətlər Konqresinin 23-cü plenar sessiyasında ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının statusunu və sərhədlərini müəyyən edən Moskva və Qars müqavilələri beynəlxalq təşkilatların sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilmişdir. Həmçinin muxtar respublika ilə əlaqə qurmaq istəyən dövlətlərin, beynəlxalq təşkilatların, eyni zamanda muxtar respublikaya səfər edən yüksək səviyyəli nümayəndə heyətlərinin sayı ildən-ilə artır, muxtar respublikada həyata keçirilən islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən digər dövlətlərin muxtar qurumlarına nümunə kimi göstərilir.

Naxçıvan Muxtar Respublikasının Azərbaycanın xarici əlaqələrində fəal iştirakının zəruriliyi hər zaman diqqət mərkəzində olmuş və bu əlaqələrin koordinasiyasının təmin olunması üçün müxtəlif işlər görülmüşdür. Belə ki, 1997-ci ildə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasında Konsulluq Məntəqəsi fəaliyyətə başlamış, bir il sonra bu qurumun əsasında Konsulluq şöbəsi, 2003-cü ilin fevralında isə Konsulluq İdarəsi yaradılmışdır. 2005-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin yaradılması haqqında Fərman imzalamışdır.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin işinin səmərəli təşkili üçün ardıcıl tədbirlər görülmüş, yeni inzibati bina istifadəyə verilmişdir. Həmçinin idarənin Sədərək, Culfa, Şahtaxtı və Naxçıvan Beynəlxalq Hava Limanı sərhəd-nəzarət-buraxılış məntəqələrində, eləcə də Naxçıvan və Culfa dəmir yolu vağzallarında viza sektorları fəaliyyətə başlamışdır. İdarədə kadrların seçilməsi və peşəkarlıq qabiliyyətlərinin yüksəldilməsinə xüsusi diqqət yetirilir. Əməkdaşlar mütəmadi olaraq Azərbaycan Diplomatik Akademiyasında və bir çox xarici ölkələrdə təşkil olunmuş diplomatik kurslarda iştirak edir, təcrübə, bilik və bacarıqlarını artırırlar. 2018-ci ilin birinci yarısında idarənin əməkdaşları Yaponiya, Türkiyə, Pakistan, Çin və Rumıniyada, eləcə də Azərbaycan Diplomatik Akademiyası tərəfindən Bakıda təşkil olunmuş təlim kurslarında iştirak etmişdir. İdarənin 20 əməkdaşı isə Azərbaycanın xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinə ezam olunmuşdur. Onlar ölkəmizin Bolqarıstan, Malayziya, Türkiyə, Çili, Səudiyyə Ərəbistanı, Pakistan, Qazaxıstan, Türkmənistan və Ukraynadakı səfirliklərində, eləcə də Təbriz, Qars və İstanbul şəhərlərindəki Baş konsulluqlarında ölkəmizin maraqlarını layiqincə müdafiə edirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Diplomatiya sıravi peşələrdən deyil. O, xalqın milli və siyasi maraqlarına birbaşa təsir göstərən fəaliyyət sahəsidir. Yaxşı işlənmiş və əsaslandırılmış diplomatiyası olmayan dövlətlər siyasi səhnədən silinməyə məhkumdurlar".***

İdarənin kollektivi Ali Məclis Sədrinin bu fikirlərini əldə rəhbər tutaraq bundan sonra da ölkəmizin milli və siyasi maraqlarının qorunmasında uğurla fəaliyyət göstərəcək.

***Azərbaycan Respublikası***
***Xarici İşlər Nazirliyinin Naxçıvan***
***Muxtar Respublikasındakı İdarəsi***

---

## Miqrasiya proseslərinin idarəolunması diqqət mərkəzindədir

İyun ayı ərzində Dövlət Miqrasiya Xidməti tərəfindən muxtar respublikada olma və yaşama qaydalarına əməl etmədən yaşayan 16 əcnəbi aşkarlanıb. Onlardan 14-ü barəsində Azərbaycan Respublikası ərazisini 48 saat ərzində tərketmə, 2-si barəsində inzibati qaydada ölkə hüdudlarından kənara çıxarılma qərarı qəbul edilib.

Ümumilikdə, ay ərzində Dövlət Miqrasiya Xidmətinə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, habelə Azərbaycan Respublikası vətəndaşları tərəfindən 1192 müraciət daxil olub. Bu müraciətlərdən 74-ü əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvəqqəti yaşamaq üçün icazənin, əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazəsinin verilməsi, eləcə də vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlıdır. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul edilib. İyun ayı ərzində olduğu yer üzrə qeydiyyatla bağlı 1118 müraciət qeydə alınaraq icrası təmin olunub. Həmin müraciətlərdən 486-sı elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib.

Hazırda Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq ardıcıl maarifləndirmə tədbirləri həyata keçirilir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin***
***Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

*Almaniya vətəndaşı Waltraud Hofbauer Naxçıvanda səfərdə olmuşdur. O, ölkəsinə qayıtdıqdan sonra **www.hofbauer-birding.de** internet portalında Naxçıvan Muxtar Respublikasına etdiyi səfər barədə yazı yerləşdirmişdir. Həmin yazını təqdim edirik.*





## Azərbaycana və onun Naxçıvan Muxtar Respublikasına səfərim

Bir həftədir ki, mən Almaniyanın Münhen şəhərində yaşayan dostum Markus Dahne ilə birlikdə ikihəftəlik yaz məzuniyyətimdən geri qayıtmışam. Mayın 28-dən iyunun 8-dək Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında səfərdə oldum. Kəşf edilməmiş ərazilərdə birinci həftəni Azərbaycanın şimal hissəsi hesab olunan Böyük Qafqaz, sonra isə Xəzər dənizinin ətrafında olan Şirvan və Qızılağac Milli parklarında keçirdik. İkinci həftəni biz Azərbaycanın cənubunda, İran sərhədində olan Talış dağlarında keçirdikdən sonra səfərimizin son üç gününü Naxçıvan Muxtar Respublikasında keçirməyi qərarlaşdırdıq. Elə bu məqsədlə də Naxçıvan şəhərinə yola düşdük. Naxçıvanda bizi Kiçik Qafqaz və gözəl təbiət mənzərələri gözləyirdi.



Haçadağın görüntüsü. Naxçıvan. İyun-2018

Bizim tur proqramımız "Batumu Birding" turizm şirkətinin "Oliver Travel" və "Natiq Travel Naxçıvan" turizm təşkilatları ilə əməkdaşlığı çərçivəsində təşkil edilmişdi. On ildən artıqdır ki, Azərbaycanı tanıyan və Almaniyanın "Greifsward" universitetinin ornitologiya ixtisasını bitirmiş Michaei Heib adlı qrup rəhbəri ilə birlikdə biz, demək olar ki, ərazidə görmək istədiyimiz bütün quş növlərini gördük. Bizim qrup 7 nəfərdən ibarət idi.

Ərazidə biz Qafqaz tetrası (Lymms miokosiewiczi), Qafqaz uları (Tetraogaiius caucasicus), Səhra kəkliyi (Ammoperdix griseogulahs), Kəklik (Alectoris chukar), Aladöş Çərənçi (Pmnella ocularis), Tuqay bülbülü (Cercotrichas galactotes), Ağboğaz bülbül (Irania gutturalis), Qızılquyruq çaxraqcılı (Oenanthe chrysopygi), Kiçik qayalıq sittası (Sitta neumayer), Böyük qayalıq sittası (Sitta tephronota), Qırmızıqanad hörücüyəoxşar (Serinus pusiiius), Səhra çaxraqcılı (Rhodospiza obsoieta) və Qayalıq vələmirquşlarını (Embenza buchanani) gördük. Gördüyümüz quşların əksəriyyəti dağlıq ərazilərdə yaşayır. Həmin quşları görmək üçün vaxtımızın əksər hissəsini dağ yamacları və yüksəklik ərazilərdə keçirdik. Uzun günlər və uzun gəzintilərlə gərgin tur proqramı keçdik və çoxlu sayda yeni quş növləri və gözəl təbiət mənzərələri müşahidə etdik. Səfər müddətində Naxçıvanda 185 quş növü gördük ki, onlardan da 44-ü mənim üçün yeni quş növləri idi. Mən bu əraziyə yenidən qayıtmağı nəzərdə tuturam.



Qırmızıqanad mərcimәkquşu. Naxçıvan.



Batabat. Naxçıvan. İyun -2018



Ağdöş qaratoyuq. Naxçıvan. İyun - 2018



Aladöş çərənçi. Naxçıvan. İyun - 2018



Səhra zəvzəyi. Naxçıvan. İyun - 2018



İlandağ . Naxçıvan. İyun - 2018



Nehrəmdə dağlıq ərazi. Naxçıvan. İyun - 2018



Qayalıq vələmirquşu. Naxçıvan. İyun- 2018



Qızılquyruq çaxraqcıl.Naxçıvan.İyun- 2018



Səhra kəkliyi. Naxçıvan. İyun - 2018



Tuqay bülbülü. Naxçıvan. İyun - 2018



Böyük qayalıq sittası. Naxçıvan.İyun- 2018



Leşyeyən ağqartal. Naxçıvan. İyun 2018



Qarabaş vələmirquşu. Naxçıvan. İyun 2018



Kəklik. Naxçıvan. İyun - 2018

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi münasibətilə ebru sənətçisi, Türkiyə Böyük Millət Məclisinin sənət üzrə müşaviri Hikmət Barutçugilin əsərlərindən ibarət "Allahın gözəl adları" mövzusunda sərgisi təşkil olunub.*

## Ebru sənəti nümunələrindən ibarət sərgi





Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və Rəssamlar Birliyinin birgə təşkil etdiyi sərginin açılış mərasimində çıxış edən muxtar respublikanın mədəniyyət naziri Natəvan Qədimova qeyd edib ki, bu gün muxtar respublikada milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşılır. Bütün bunların nəticəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilib. Belə bir əlamətdar ildə türk-islam mədəniyyətinin dərin məzmunlu nümunələrindən olan ebru sənətinə aid bu möhtəşəm sərginin təşkili İslam mədəniyyəti ilə səsləşən mühüm mədəniyyət hadisəsidir. Sərgidə müəllifin 47 əl işi sərgilənir.

Natəvan Qədimova qeyd edib ki, 1973-cü ildə İstanbul Dövlət İncəsənət Akademiyasının Ali Məktəbində təhsil aldığı illərdə ebru sənəti ilə tanış olan Hikmət Barutçugil öyrəndiyi bu sənətə öz töhfəsini verib. "Barut Ebrusu" kimi tanınan yeni bir ebru sənəti növü yaradan Hikmət Barutçugil daha çox kağız sənəti olaraq tanınan ebrunu həm də fərqli bir sənətkarlıq növü kimi sənət aləminə təqdim etməyə müvəffəq olub. Hikmət Barutçugil ebru sənətinin inkişafı və təbliği işini daha da genişləndirmək məqsədilə İstanbul Ebru Evini yaradıb. Sənətkarın bu günə qədər Türkiyə Respublikasında və xarici ölkələrdə olmaqla, 100-ə yaxın sərgisi təşkil edilib. Ebru sənəti ilə bağlı Hikmət Barutçugilin bir sıra məqalələri və 20-yə yaxın kitabı çap olunub.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva vurğulayıb ki, məşhur ebru sənətçisi Hikmət Barutçugilin əsərlərindən ibarət sərginin təşkil olunması naxçıvanlı rəssamlar üçün sevindirici haldır.

Məşhur ebru sənətçisi Hikmət Barutçugil çıxışında bildirib ki, Azərbaycanda ebru sənətinə olan maraq məni çox sevindirir. Gələcəkdə ebru sənətilə bağlı burada ustad dərslərinin keçilməsini və bu sənətin daha da geniş yayılması üçün səylər göstərəcəyəm. Bu sərginin təşkil olunmasında əməyi olanların hamısına minnətdarlığımı bildirirəm.

Sonra Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi adından Hikmət Barutçugilə "Naxçıvan xalçaçıları" adlı kitab-kataloq hədiyyə olunub.

Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Nihat Erşen və rəssamın əsərlərinin kataloqunun tərtibçisi və naşiri olan Ahmet Taner Özer çıxışlarında sərginin yüksək səviyyədə təşkil olunmasına görə minnətdarlıqlarını bildirib, iki qardaş ölkə arasında bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsində də əlaqələrin sürətlə inkişaf etdiyini diqqətə çatdırıblar.

Sonra sərgiyə baxış olub.

Qeyd edək ki, sərgi bir neçə gün davam edəcək.

* * *

Sərgidə türkiyəli rəssam "Şərq qapısı" qəzetinə müsahibəsində bildirib ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi məni çox sevindirdi. Çünki Azərbaycan torpağı qədim tarixə və mədəniyyətə malik bir diyardır. Bu münasibətlə əsərlərimdən ibarət "Allahın gözəl adları" mövzusunda sərginin burada təşkil edilməsi mənim üçün qürurvericidir.



Belə sərgilərin təşkil olunması İslam mədəniyyətinin təbliği baxımından mühüm əhəmiyyətə malikdir, – deyən Hikmət Barutçugil vurğulayıb ki, Naxçıvana ilk dəfə gəlməyimə baxmayaraq, burada mədəniyyətə, incəsənətə yüksək dəyər verildiyinin şahidi oldum. Bu, məni bir sənətçi kim çox sevindirdi. Sərginin təşkilatçılarına minnətdarlığımı bildirirəm.

**Tural AĞAYEV**

## Hərbçilərimiz növbəti xidmət yerlərinə yola salınıblar



***Əlahiddə Ümumqoşun Orduda ilkin zabit rütbəsi alan məzunlar və aprel ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlər ixtisas hazırlığı kurslarını bitirərək növbəti xidmət yerlərinə yola salınıblar.***

Tədbirdə mərasimə hazırlıqla bağlı məruzə edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edən zabitlər, məzunlar, əsgərlər və valideynlər kurslarda fəallıq göstərərək yenilməz döyüşçü keyfiyyətlərinə yiyələnən gənclərə xidmətlərində uğurlar arzulayıblar.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev şəxsi heyəti təbrik edərək bildirib ki, may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, Şərur rayonunun Günnüt kəndi və ətrafındakı mühüm strateji əhəmiyyəti olan yüksəkliklər düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər ələ keçirilib. Tarixə qızıl hərflərlə yazılan Günnüt əməliyyatının uğurla nəticələnməsi ötən illər ərzində kurslarda peşəkar döyüşçü kimi yetişən hərbçilərimizin sayəsində mümkün olub. Dövlət qayğısını hər zaman üzərində hiss edən, xalq-ordu birliyindən ruhlanaraq ən çətin döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır olan hərbi qulluqçularımızın sıralarına bu gün yeni üzvlər daxil olur. İnanırıq ki, hər biriniz kurslarda qazandığınız biliklər nəticəsində ordumuzun daha da güclənməsi üçün əlinizdən gələni əsirgəməyəcək, nümunəvi xidmətinizlə fərqlənəcəksiniz.

Sonra ehtiyat zabit hazırlığı kursunu bitirən məzunlara sertifikatlar təqdim edilib.

Aprel ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin ixtisas hazırlığı kurslarında uğur qazanaraq ən yaxşı tabor, bölük və taqım adına layiq görülən bölmələrə keçici bayraqlar təqdim edilib.

Nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

İxtisas hazırlığı kursunu başa vurmuş əsgərlər fiziki hazırlıq üzrə silahsız və silahlı çalışmalar kompleksini, müxtəlif atıcı silahların gözübağlı vəziyyətdə natamam sökülüb-yığılmasını, minaatan qurğuların döyüş və səfər vəziyyətinə gətirilməsini praktik yerinə yetiriblər.

Sonda bölmələrin tribuna önündən təntənəli keçidi olub.

**Nəriman NƏCƏFOV**

Gəncliyimiz, gələcəyimiz

# İntellektual gənclik xoşbəxt gələcəyin etibarlı qarantıdır

*Hər bir dövlətin inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyinin gücləndirilməsi birbaşa gələcəyin etibarlı təminatı olan kadr hazırlığından asılıdır. Çağdaş dünya çağırışlarına cavab verən təhsil sisteminin yaradılması ölkəmizin inkişaf konsepsiyasının mühüm tərkib hissəsinə çevrilib. Bu sahədə əsası ümummilli liderimiz tərəfindən qoyulan islahatlar bu gün Prezident cənab İlham Əliyev tərəfindən yeni mərhələdə uğurla davam etdirilir. Təhsil sahəsində atılan genişmiqyaslı addımlar böyük nailiyyətlər əldə edilməsinə və dövlətimizin sürətli inkişafına əsas baza yaradan amildir.*

Muxtar respublikamızın hərtərəfli tərəqqisi məqsədilə qəbul edilən “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na əsasən tədris şəraitinin yaxşılaşdırılması, informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi və məktəb kitabxanalarının fəaliyyətinin təkmilləşdirilməsi əsas prioritetlərdəndir.



Məhz buna görə də bu gün ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda gənc kadrların hazırlanmasına, onların işlə təmin olunmasına, potensiallarından səmərəli istifadəyə xüsusi diqqət yetirilir. Gənclərin inkişafına göstərilən hərtərəfli dövlət qayğısı, onların yaradılan bu şəraitdən bəhrələnərək müxtəlif sahələrdə uğurlar qazanması da Naxçıvan şəhərinin 2018-ci il üçün ölkəmizin Gənclər Paytaxtı statusuna layiq görülməsini şərtləndirən amillərdəndir.

Təhsil sahəsində görülən bütün işlər savadlı, istedadlı gənclərin yetişməsinə və cəmiyyətin intellektual potensialının artmasına zəmin yaradır. Belə gənclərdən biri də Təbəssüm Hacıyevadır. O, 1998-ci il may ayının 31-də Ordubad rayonunun Vənənd kəndində dünyaya göz açıb. Kənd orta məktəbini bitirdikdən sonra 2015-ci ildə 615 balla Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin Tərcümə (ingilis-Azərbaycan) ixtisasına qəbul olunub. Dərslərinə böyük məsuliyyətlə yanaşan bu tələbə bir sıra elmi-ictimai tədbirlərdə də fəal iştirak edir. O, 2016-cı il 12-15 may tarixlərdə BMT-nin İnkişaf Proqramının təşkilatçılığı ilə keçirilən MUN (Model United Nation) konfrasındakı iştirakına görə sertifikat alıb, 2017-ci il aprel ayında Tələbə Elmi Cəmiyyətinin keçirdiyi müsabiqədə ingilis dili fənni üzrə işlədiyi “Aprel döyüşləri” (“April Battles”) adlı mövzuya görə birinci yerə layiq görülüb və diplomla təltif olunub. Bununla yanaşı, 2017-ci ilin noyabr ayında “Azərbaycan bayrağı dövlətçiliyin və müstəqilliyin rəmzidir”, 2018-ci ilin may ayında isə “Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi” adlı məqalələri ilə ikinci yeri tutaraq fəxri fərman və pul mükafatı ilə qiymətləndirilib. Onunla söhbətimizdən:

– ***“Cəmiyyət təhsilsiz inkişaf edə bilməz”,*** – deyən ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi və dövlət başçısı cənab İlham Əliyevin uğurla davam etdirdiyi təhsil siyasəti bu gün öz bəhrələrini verməkdədir. Bunu muxtar respublikamızın timsalında da görmək olar. Qədim diyarımızda təhsilin inkişafı ilə əlaqədar olaraq həyata keçirilən tədbirlər kadr potensialının gücləndirilməsinə xidmət edir. Naxçıvanlı gənclərin səsi beynəlxalq səviyyəli tədbirlərdən gəlir. Biz də onların ardıcılı olaraq, bu gün muxtar respublikanın təhsil sistemində yaradılmış yüksək şəraitdən səmərəli istifadə etməli, qarşımıza qoyulan vəzifələrin yerinə yetirilməsində fəal olmalıyıq.

Bu gün təhsil sahəsində əsas məqsəd Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən vətənpərvərlik və Azərbaycançılıq ideyalarına sadiq olan müstəqil və yaradıcı şəxsiyyət yetişdirməkdir.

Ona görə də özümüzü bu ölkənin təfəkkürlü gəncləri siyahısında görmək üçün çalışmalıyıq. Hansı ixtisas və ya peşənin sahibi oluruqsa-olaq, həmişə öz üzərimizdə vətəndaş olaraq iştirak etməliyik. Vətənpərvər ruhlu gənc kimi öhdəliklərimizi, məsuliyyətimizi daha dərindən dərk etməli, yaradılan şəraitdən dolğun istifadə etməliyik ki, bizə göstərilən etimadı doğrulda bilək. Həmsöhbətimiz gələcək arzularından da söhbət açaraq bildirdi ki, bu il Naxçıvan şəhərinin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar olaraq keçirilən tədbirlərdə uğurla iştirak etmək istəyir.

**Jalə ALMƏMMƏDOVA**

# Aztəminatlı ailələrin özünüməşğulluğu ilə bağlı növbəti tədbir

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq ailə əməyinə əsaslanan fərdi təsərrüfatların yaradılmasına köməklik göstərilməsi məqsədilə Şərur, Babək, Ordubad, Culfa və Sədərək rayonları üzrə, ümumilikdə, 11 aztəminatlı ailə müəyyənləşdirilib. Həmin ailələrdən 10-na yanında balası olan iribuynuzlu, 1-nə isə 10 baş xırdabuynuzlu heyvan verilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov muxtar respublikada aztəminatlı ailələrə göstərilən dövlət qayğısı, onların məşğulluğunun təmin olunması istiqamətində həyata keçirilən tədbirlər barədə danışıb. Sonra aztəminatlı ailə təmsilçilərinə verilən mal-qara ilə bağlı sənədlər təqdim olunub.

Babək rayonunun Naxışnərgiz kənd sakini Qənbər Zamanov göstərilən qayğıya görə minnətdarlığını bildirib.

Qeyd edək ki, ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən 120 aztəminatlı ailənin özünüməşğulluğunun təmin edilməsi üçün müvafiq köməklik göstərilib.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

# Əmək yarmarkası keçirilib



***Əhalinin məşğulluğunun təmin olunmasında keçirilən əmək yarmarkaları mühüm rol oynayır. Bu tədbirlərin davamı kimi iyulun 6-da Sədərək rayonunda növbəti əmək yarmarkası keçirilib.***

Tədbirdə çıxış edən rayon Məşğulluq Mərkəzinin direktoru Həsən Nəsirov qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün mərkəzin əməkdaşları rayondakı idarə, müəssisə və təşkilatlarda, sahibkarlıq subyektlərində boş iş yerləri haqqında məlumatlar toplayaraq həmin yerləri əmək yarmarkalarında işaxtaran vətəndaşlara təqdim edirlər.

Sədərək Rayon İcra Hakimiyyəti başçısının müavini Yusif Seyidov çıxışında qeyd edib ki, muxtar respublikamızda həyata keçirilən tədbirlərin nəticəsidir ki, sərhəd bölgəsi olan Sədərək rayonunda da əhalinin məşğulluğu prioritet vəzifəyə çevrilib, ötən dövrdə bu sahədə uğurlu nəticələr əldə edilib.

Sonra tədbir iştirakçıları idarə, müəssisə və təşkilatlar tərəfindən əmək yarmarkasına çıxarılmış boş iş yerləri ilə tanış olublar. 7 təşkilatdan 98 boş iş yerinin çıxarıldığı tədbirdə 12 nəfərə işə göndəriş verilib.

**Sərxan İSMAYILOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2018-ci ilin iyun ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3501 | 259,0 | 259,0 | 100,0 |
| 2. | Şərur rayonu | 1895 | 134,2 | 134,2 | 100,0 |
| 3. | Babək rayonu | 1936 | 136,5 | 136,5 | 100,0 |
| 4. | Ordubad rayonu | 1344 | 95,3 | 95,3 | 100,0 |
| 5. | Culfa rayonu | 900 | 63,7 | 63,7 | 100,0 |
| 6. | Kəngərli rayonu | 866 | 61,5 | 61,5 | 100,0 |
| 7. | Şahbuz rayonu | 423 | 30,0 | 30,0 | 100,0 |
| 8. | Sədərək rayonu | 208 | 14,8 | 14,8 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 23522 | 2117,0 | 2115,7 | 99,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **34595** | **2912,0** | **2910,7** | **100,0** |

**Qeyd:** İyun ayında texniki itki nəzərə alınmaqla daxil olan 34 milyon 595 min kilovat/saat elektrik enerjisinin dəyəri 2 milyon 912 min manat olmuş, cəmi 2 milyon 910 min 700 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

*Kəhrizlər hələ qədim zamanlarda insanların məişət və təsərrüfatda istifadə etdiyi əhəmiyyətli su mənbələri olub. Onlardan dəyirmanları işlətmək, əkinləri, bağları və bostanları suvarmaqla yanaşı, soyuducu kimi də istifadə edilib.*

# Kəhrizlər su, su isə həyat mənbəyidir



XX əsrin 30-cu illərinə qədər Naxçıvan diyarında 400-ə yaxın kəhriz fəaliyyət göstərib. Təkcə Naxçıvan şəhərində 30-dan çox kəhriz olub ki, onlar şəhər və ətrafındakı ərazilərin su tələbatını ödəyib. Lakin ötən əsrin ortalarında – sovet dönəmində həmin kəhrizlər baxımsız vəziyyətə düşüb, onların bir hissəsi unudulub, sıradan çıxıb. Bu isə, öz növbəsində, kənd təsərrüfatı sahəsində çətinliklərin yaranması və su çatışmazlığı ilə nəticələnib.

Sevindirici haldır ki, son illərdə muxtar respublikamızda bir çox sahələrə göstərilən qayğı kəhrizlərdən də yan keçməyib. Elə bunun nəticəsidir ki, 2004-cü ildə Naxçıvanda Kəhrizlər İdarəsi yaradılıb və ötən müddətdə onlarla kəhriz bərpa olunaraq əhalinin istifadəsinə verilib.

Naxçıvan şəhərində indi də fəaliyyətdə olan kəhrizlər vardır ki, onlar üzərində əməyi olan xeyriyyəçilərin adları ilə adlandırılır. Həmin kəhrizlər Cəfərquluxan, Mirzəbədəl, Qələndər, Kərbəlayi Musa, Çuxur, Məşhədi Tahir, Ağaməli, Şahbazağa, Cığatay, Cənənbər və başqalarıdır. Haliyədə muxtar respublika Kəhrizlər İdarəsi tərəfindən milli sərvətimiz olan kəhrizlər təmir-bərpa olunaraq su potensialını artırmaqla xalqın istifadəsinə verilir. Bu gün nəinki şəhərimizdə, muxtar diyarımızın hansı səmtinə üz tutsaq, orada adı xeyriyyəçilik, insanpərvərlik kimi nəcib xüsusiyyətlərlə yaddaşlarda yaşayan ulu babalarımızın öz xalqına miras qoyub getdiyi kəhrizlərə rast gələrik. Bu isə Naxçıvandakı su mənbələrinin zənginliyini göstərir. Belə su mənbələri ilə diqqətçəkən bölgələrimizdən biri də Kəngərli rayonudur. Aparılan müşahidələrə, yaşlı adamların dediklərinə görə, rayonun ərazisində 100-dən çox kəhriz olub. Bu kəhrizlərdən 46-sı Qarabağlar, 36-sı Çalxanqala, 15-i Xıncab, 14-ü Xok, 4-ü Təzəkənd, 6-sı Yurdçu kəndlərinin ərazisindədir. Son illər kəhrizlərin təmiri və bərpası sahəsində görülən işlərdən bu bölgəyə də xeyli pay düşüb. Belə ki, rayonun Təzəkənd, Çalxanqala, Şahtaxtı və Xıncab kəndlərində kəhrizlər bərpa olunub. Rayonun Yurdçu kəndinin ərazisindəki məşhur Ağsu kəhrizinin də əvvəlki şöhrəti özünə qaytarılıb. Kəndə xüsusi gözəllik bəxş edən Ağsu kəhrizinin ətrafında yaraşıqlı park da salınıb. Kəhrizin qarşısında üçbucaq şəklində hovuz tikilib. İyirmi iki quyusu olan kəhrizin mənbəyindən hovuza qədər olan məsafə 656 metrdir. Su bu hovuzdan parkın sağ və sol tərəfinə çəkilmiş kanala axıb gedir. Kəndin 233 təsərrüfatı da bu kəhrizin saf suyu ilə qidalanır. Ağsu kəhrizinin təmiri qədim yurd yeri olan Yurdçunun torpağa bağlı insanlarına dövlət qayğısının növbəti ifadəsi kimi dəyərləndirilir. Bu gün Ağsu kəhrizi kimi muxtar respublikamızda qorunub yaşadılan bütün kəhrizlər, min illər əvvəl olduğu kimi, indi də çağlayaraq saf suyu ilə ürəklərə sərinlik, torpağa ruzi-bərəkət bəxş edir.

**Gülcamal TAHİROVA**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 488